

## SONA XƏYAL

# TƏRCİ-BƏND

Aşiq olanlar, könül, əqlü kəmal istəməz.
Eyləmə təklif ona, dövlətü mal istəməz.
Heç nədə olmaz gözü, cahü cəlal istəməz.
Məşuqu sor sən ona, özgə sual istəməz.
Yarının əksin görüb, qeyri cəmal istəməz.
Zülmətə düşsə vəli göydə hilal istəməz.
Dövrəni güllər sara, özgə vüsal istəməz.
Xar ilə əğyar gələ, qeylilə qal istəməz,
Atəşi-eşq içrə çün böylə zəval istəməz.
Aşiqin halı budur, özgə bir hal istəməz.

Eşqə düşənlər bilər eşqü məhəbbət qəmin,
Haqqı görən dərk edər zövqi-həqiqət dəmin.

Arif olanlar bilər ləzzəti-ürfan nədir.
Arifə lazım deyil mülki-Süleyman nədir.
Haqqı gəzən aşiqə seyri-gülüstan nədir?
Məcnuna sorsan deyər quli-biyaban nədir.
Könlü xərab olmuşun eşqinə nöqsan nədir?
Bayquşa sor ki, desin səhneyi-viran nədir.
Ağlamaya eşqə göz, olmaya giryan, nədir?
Sevgi üçün kor olan ol gözə dərman nədir?
Söylə, içində olan can nədi, canan nədir,
Bahəm olursa bular, eşqdə qurban nədir?

Eşqə düşənlər bilər eşqü məhəbbət qəmin,
Haqqı görən dərk edər zövqi-həqiqət dəmin.

Canını etməz fəda dəhri-fəna istəyən.
Sinəsin açmaz qəmə dərdə dəva istəyən.
Eşqi cəfasız bilər onda səfa istəyən,
Ahü fəğan istəməz özgə həva istəyən.
Özgə məqam dinləməz şurü nəva istəyən.
Məcnuna manənd olar dərdü bəla istəyən.
Nəfsini saxlar, Sona, Mərvü Səfa istəyən.
Rumini mürşid seçər könlü "Səma" istəyən.
Şahı üçün yaş tökər Kərbübəla istəyən,
Burda dayanmaz gedər, canı fəda istəyən.

Eşqə düşənlər bilər eşqü məhəbbət qəmin,
Haqqı görən dərk edər zövqi-həqiqət dəmin.

# TƏRKIBBƏND

Könlüm yenə qərq oldu əcəb fikrü xəyalə,
Saldı yenə bu hicr məni dərdü məlalə.
Verdi mənə qəmlə bolu bu dəhr piyalə,
Ol vəch ilə düşdüm yenə mən haldən halə.
Yetməzmi sevən aşiqin, ey yar, vüsalə?
Aləmdə verən varmı cəvabı bu sualə?
Xəm oldu qədim döndü fərağın ilə dalə,
Sən duymadın əmma ki, yetib ərşə bu nalə.
Qoyma məni həsrət, nola, ol nuri-cəmalə,
Ta kim, yetişim hər iki aləmdə kəmalə.

Eşq olmasa hərgah çökər rükni səmanın,
Eşq olmasa bir ləzzətiu yoxdur bu cəhanın.

Yüz gül ola gülşən ara, könlüm ona bağlı,
Yüz yol çəkə gündə dara, könlüm ona bağlı.
Dost olsa da hərgiz xara, könlüm ona bağlı,
Baxmaz nə yoxa, nə vara könlüm, ona bağlı.
Lap dönsə də bir gün mara, könlüm ona bağlı,
Gəlsəm də əlindən zara, könlüm ona bağlı.
Yox ehtiyacım zünnara, könlüm ona bağlı,
Yandırsa da könlüm nara, könlüm ona bağlı.
Yox çarə məni-bimara, könlüm ona bağlı,
Hər gün dönərəm zəvvara, könlüm ona bağlı.

Sevda yoludur, anla ki, əsrarı bilinməz,
Eşqə düşənin hər nə ola karı bilinməz.

Gər yox hünərin, eşqdən, ey dil, həzər eylə,
Yox, yarı sevərsən, geconi dur, səhər eylə.
Aləm qəmini yığ başına, dərdi-sər eylə,

Gözlərdəki göz yaşını xuni-cigər eylə.
Eşq aləmi bir başqadı, fikri-digər eylə,
Lazımsa səbadan özünə balü pər eylə.
Əlçatmayan aləmlərə sən bir güzər eylə,
Çöllərdəki aşiqlərə ordan xəbər eylə.
Gəl burda bu eşq söhbətini müxtəsər eylə,
Bildiklərini yaz, Sona, sən bir əsər eylə.

Eşqin qəmi şe'r içrə misali-gühər olsun
Yazma elə söz ki, bəşərə bisəmər olsun.

## MÜSTƏZAD

Ey mülki-fənaya yetirən mehrü məhəbbət,
gəl gözləmə şəfqət.
Bu dəhrdə, ey dil, tapa bilməzsən həqiqət,
çün çoxdu xəyanət.
Əhli-bəşəri Xaliqi-Sübhan yaradanda,
insan yaradanda,
Fəryadə gəlib etdi mələklər şikayət,
gör bir nə qiyamət.
İblis bəşəri saymadı, tərk etdi məqamın,
sərf etdi təmamın,
Rəbbim yenə də bizlərə verdi bir iqamət,
həm etdi hidayət.
Göndərdi bəşərçün neçə min ali peyəmbər,
Olsun bizə rəhbər,
Ta ki, gəlib imanə, edə insana xidmət,
Allahə ibadət.
İmansız olan qəlbə girər, gör nələr eylər
İblis, Sona söylər:
Övladi-bəşərlə nə qədər etsə ədavət,
yox onda kəramət.

***

Özgə sevgi nəyə gərək,
Mən o eşqin yolçusuyam.
Yolumdan döndərmə məni,
Ulu eşqin yolçusuyam.

Demə tənha qalanam mən,
Demə qönçə solanam mən.
Elə bilmə yalanam mən,
Ulu eşqin yolçusuyam.

Saxlama məni yolumdan,
Tutanım vardır qolumdan.
Nida gəlib o "Ulu"mdan,
Ulu eşqin yolçusuyam.

Nə vernəm kimsəyə xərac,
Nə də almam birindən bac.
Möhtaca deyiləm möhtac,
Ulu eşqin yolçusuyam.

Sona etdi "Eşq səfəri",
Çox hərəmə vurdu səri.
Məni çağırmayın geri,
Ulu eşqin yolçusuyam.

***

Hamı kimi yaradıldım, doğuldum,
İllərimi saya-saya böyüdüm.
Bu həyatın zindanında boğuldum,
Ahım yetdi Günə, Aya, böyüdüm.

Allah mənə tale yazdı qar kimi,
Həyat oldu həm yox kimi, var kimi.
Bu dünyanın paltarında dar kimi
Yolum oldu daşlıq, qaya, böyüdüm.

Haq yolundan heç nə ilə dönmədim,
Ömür boyu hey alışdım, sönmədim.
Bir kimsənin ayağına enmədim,
Böyükləri saya-saya böyüdüm.

Quran sözün yüksək bildim hər sözdən,
Məsumları əziz tutdum hər üzdən.
Dərsi aldım on üç oğul, bir qızdan,
Allah deyən on dörd saya böyüdüm.

Xəyal atın çapdım haqqın yolunda,
Ömrüm keçdi ölüm ilə olumda.
Hər iş üçün qüvvə tapdım qolumda,
Allah məni saldı saya, böyüdüm.

***

"Sən hələ cavansan" deməyin mənə,
Bu qoca dünyaya qoca gəlmişəm.
Ayağım torpaqda, başım səmada,
Çox da doğulanda quca gəlmişəm.

Gələndə çox şeyi, axı, bilirdim,
Amma danışmırdım, dilim bağlıydı.
Bəşərin işinə daim gülürdüm,
Elə bilirdilər "uşaq ağlı"ydı.

Dilim açılınca aldılar məndən,
Bütün elmləri göyə çəkdilər.
Ayağım yer tutdu, addım atdıqca,
Başıma kim bilə nələr əkdilər.

İndi danışıram, dilim açılıb,
Amma danışdığım elmdən uzaq.
Hərdən yalvarıram uca Allaha,
Kaş yenə qayıdıb olaydım uşaq.

Göylərin qanunu tamam başqadır,
Uşaqlıq arzusu səmaya çatmaz.
Dünyaya gəlmişik sınanmaq üçün,
Bizi bir də Tanrı uşaq yaratmaz.

***

Qar bilmədin, qış bilmədin,
isti bilmədin, günəş bilmədin.
Göydən qar gələndə də,
od ələnəndə də
dayandın, durdun bu yerdə.
Günlər, həftələr deyildi,
aylar, illər deyildi,
Bütün gəncliyini xərclədin
uğursuz bir sevgi yolunda.
Bütün dincliyini xərclədin
ölümlə olumda.
Bu gün boşdur bu küçə,
izlərini illər itirib bəlkə də.
Mənsiz illər alıb aparıb
bu yolların mənasını.
Mənsiz anlar anlatsa da,
həqiqi eşqin mənasını,
Mənli illərin yazdığı dastan
artıq xatirə yüküdür.
Bu, o qədər ağır çəkidir...
Çəkilməz,
dözülməz,
heç nə ilə ölçülməz.
Bu sevda içimdə ağlar, sızlar,
Amma itməz, batmaz, ölməz...

***

Gəldim...
Keçdim o yollardan bir də.
Yol boyu səni düşündüm
boylandın xatirələrimdən.
Əritdim qəlbimin zülmətini
xatirələr işığında.
Bir titrəyiş
bir pıçıltı
bir ılıq hənir duydum.
Vərəqlədikcə sənli xatirələri,
Bir sevgi ümmanında
batdım, uyudum.
Çözələndi illərin yorumu,
üzə çəkdin
kül içindən qorumu.
Sənli günlərimin
xoşbəxt anları
işıqlandı.
Bir sevgi tarixçəsi
varaqlandı.
O günlərdəki kimi
gördüm səni.
Sanki duydum səni...
Tutdum sənli xatirələrin
uzun ətəyindən,
Oxundun uğursuz bir eşqin
kədər nəğməsi kimi.
Böyüdün
sevgi kəlməsi kimi.
Addım-addım
gəzdim ləpirlərində,
Tapdım səni,
gördüm səni.
Bir anlıq yandım da
illərin həsrətinə.
Sevgi dolu baxışlarını tutdum,
yanan könlümü uyutdum.
Hər zamanki kimi...
Başqa nə istədim ki
sənli dünyadan?!
Kaş oyanmayaydım
bu şirin röyadan...

***

Bir şeir yaz mənə!
Misraları hörmətdən,
nöqtə-vergülü məhəbbətdən.
Bir şeir yaz mənə,
təmtəraqsız, pafossuz.
Xəbər versin
əvvəli dünəndən,
sonu əbədiyyətdən.
Bir şeir yaz mənə,
oxuyanda qəlbini görüm.
Üzümdə xəfif təbəssüm,
gözümdə sevinc seli,
İlıq hissini, duyğunu
qəlbimə hörüm.
Bir şeir yaz mənə,
avazı özündən
ahəngi sözündən.
Gərək deyil kağız-qələm,
əziz balam, elə yaz,
Oxuya bilim üzündən,
gözündən.